**RƏSMİ SƏNƏDLƏR**

# YUNESKO-NUN 2008-2009-CU İLLƏRDƏ GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİN VƏ ƏLAMƏTDAR HADİSƏLƏRİN QEYD EDİLMƏSİ PROQRAMINA AZƏRBAYCANLA BAĞLI DAXİL OLMUŞ YUBİLEYLƏRİN KEÇİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramı çərçivəsində YUNESKO Baş Konfransının 34-cü sessiyası 2008-2009-cu illərdə "Leyli və Məcnun" operasının ilk tamaşasının, xalq rəssamı Səttar Bəhlulzadənin, yazıçı Mir Cəlal Paşayevin və akademik Musa Əliyevin 100 illik yubileylərinin rəsmi qeyd olunması ilə bağlı qərar qəbul edilmişdir.

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" əsərinin 1908-ci ildə birinci tamaşası milli musiqi mədəniyyəti tarixində yeni dövr açmışdır. Muğamla Avropa operasının üzvi vəhdəti əsasında yaradılan "Leyli və Məcnun" Azərbaycan musiqisinin həqiqi ensiklopediyasıdır. Müsəlman Şərqində opera janrının əsası da muğam operasının bu ilk nümunəsi ilə qoyulmuşdur.

Xalq rəssamı, Dövlət mükafatı laureatı Səttar Bəhlulzadənin adı Azərbaycan boyakarlıq sənəti tarixinə mənzərə janrının yaradıcılarından biri kimi həmişəlik həkk olunmuşdur. Səttar Bəhlulzadə müxtəlif rənglərin yeni çalarlarını kəşf edərək onların ahəngindən gözəl lövhələr yaratmışdır. Rəssamın rəng palitrasının zənginliyi, poetik əhval-ruhiyə və kolorit gözəlliyi ilə seçilən orijinal üslublu əsərləri milli təsviri sənətin ən qiymətli inciləri sırasındadır.

XX əsr milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi, yazıçı Mir Cəlal Paşayev Azərbaycan ədəbiyyatının inkişafı və onun məzmunca zənginləşməsində mühüm rol oynamışdır. Xalq yaradıcılığı ilə klassik bədii irsin qabaqcıl ənənələrinin vəhdətini yeni formada yaşadan və ədəbiyyata həyat gətirmiş yazıçı kimi tanınan Mir Cəlal Paşayev eyni zamanda görkəmli tədqiqatçı alim olmuşdur.

Tanınmış geoloq alim, 1939-1941-ci illərdə indiki Azərbaycan Dövlət Neft Akademiyasının rektoru, 1950-1958-ci illərdə Azərbaycan Elmlər Akademiyasının prezidenti olmuş akademik Musa Əliyev ölkəmizdə elmin inkişafı naminə müstəsna xidmətlər göstərmişdir.

2008-2009-cu illərdə "Leyli və Məcnun" operasının ilk tamaşasının, xalq rəssamı Səttar Bəhlulzadənin, yazıçı Mir Cəlal Paşayevin və akademik Musa Əliyevin 100 illik yubileylərinin Azərbaycanda dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Bəstəkarlar İttifaqının, Azərbaycan Rəssamlar İttifaqının və Azərbaycan Yazıçılar Birliyinin təklifləri müvafiq şəkildə nəzərə alınmaqla, "Leyli və Məcnun" operasının ilk tamaşasının, xalq rəssamı Səttar Bəhlulzadənin, yazıçı Mir Cəlal Paşayevin və akademik Musa Əliyevin respublikada, xarici

ölkələrdə və YUNESKO miqyasında 100 illik yubileylərinin təşkili ilə bağlı tədbirlər planlarını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 31 yanvar 2008-ci il**

## MİR CƏLAL PAŞAYEVİN 90 İLLİK YUBİLEYİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanın görkəmli alimi və yazıçısı Mir Cəlal Əli oğlu Paşayevin 90 illik yubileyi ilə əlaqədar qərara alıram:

Azərbaycan Respublikasının Təhsil Nazirliyinə və Elmlər Akademiyasına tapşırılsın ki, yaradıcılıq ittifaqları ilə birlikdə Mir Cəlal Əli oğlu Paşayevin 90 illik yubileyi ilə bağlı lazımi tədbirlər hazırlayıb həyata keçirsinlər.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 16 aprel 1998-ci il**

---

# YAZIÇI MİR CƏLALIN (PAŞAYEV MİR CƏLAL ƏLİ OĞLUNUN) OKTYABR İNQİLABI ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA SSRİ ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Sovet ədəbiyyiyyatının inkişafında xidmətlərinə görə və anadan olmasının yetmiş illiyi ilə əlaqədar olaraq yazıçı Mir Cəlal (Paşayev Mir Cəlal Əli oğlu) Oktyabr İnqilabı ordeni ilə təltif edilsin.

**SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri L. Brejnev**
**SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi M. Georqadze**

**Moskva, Kreml, 25 aprel 1978-ci il.**

**S. M. KİROV ADINA AZƏRBAYCAN DÖVLƏT UNİVERSİTETİNİN İŞCİLƏRİNƏ FƏXRİ ADLAR VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI**

Yüksək səviyyəli kadrlar hazırlamaq sahəsində xidmətlərinə, səmərəli elmi fəaliyyətinə görə və S. M. Kirov adına Azərbaycan Dövlət Universitetinin 50 illiyi ilə əlaqədar olaraq aşağıdakılara fəxri ad verilsin:

**Azərbaycan SSR Əməkdar elm xadimi**

Paşayev Mir Cəlal Əli oğlu – Azərbaycan ədəbiyyatı kafedrasının müdiri.

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri M. İsgəndərov**
**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi Z. Şükürov**

**Bakı şəhəri, 31 oktyabr 1969-cu il.**

# SSRİ ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1967-ci il 14 yanvar tarixli Fərmanı ilə ali və orta ixtisas təhsilinin inkişaf etdirilməsində, xalq təsərrüfatı üçün ixtisaslı mütəxəssislər hazırlanmasında göstərdikləri xidmətlərə və elmi tədqiqatların inkişafında qazandıqları müvəffəqiyyətlərə görə ali və orta ixtisas təhsili sahəsində çalışan işçilərin böyük bir qrupunu SSRİ orden və medalları ilə təltif edilmişdir.

## Qırmızı Əmək Bayrağı ordeni ilə

Paşayev Mir Cəlal Əli oğlu – professor, S. M. Kirov adına Azərbaycan Dövlərt universitetinin kafedra müdiri

**1967-ci il 14 yanvar**

## YAZIÇI MİR CƏLAL ƏLİ OĞLU PAŞAYEVİN "ŞƏRƏF NİŞANI" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA SSRİ ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Mir Cəlal Əli oğlu Paşayev yoldaşın anadan olmasının əlli illiyi ilə əlaqədar olaraq və sovet ədəbiyyatının inkişafında onun xidmətləri nəzərə alınaraq Mir Cəlal Əli oğlu Paşayev yoldaş "Şərəf nişanı" ordeni ilə təltif edilsin.

**SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri K. Voroşilov**
**SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi M. Georqadze**

**Moskva, Kreml, 7 may 1958-ci il.**